# “Azərbaycanda polyak irsi” cəlbedici turizm marşrutlarından biri olacaq

***Azərbaycanda neft bumu zamanı ölkəmizə can atanlar çox olub. Almaniyadan, Polşadan, İngiltərədən Bakıya xeyli iş adamı gəlmişdir. Azərbaycana Polşadan da memarlar gələrək Bakıda xeyli bina layihələndirmişlər. İndi onların əksəriyyəti tarixi əhəmiyyətlidir. Bir neçə polyak Bakının baş memarı kimi çalışıb.***



Azərbaycana polyakların gəlişi XVII əsrin əvvəllərindən başlasa da, onların ikinci dalğası XIX əsrin ortalarında olub. Sovet hakimiyyətinin qurulmasından sonra polyakların bəziləri vətənlərinə qayıtsa da, bir hissəsi Azərbaycanda qalıb. Məlumatlara görə, hazırda ölkəmizdə 200-ə yaxın polyak yaşayır.

XIX əsrdə Polşa ilə Azərbaycanın əlaqələri daha intensiv olub. Məhz bu zaman Azərbaycana polyak mühəndisləri, memarları, həkimləri gəlib. Polyak memarları Bakı memarlığının formalaşmasında müstəsna rol oynayıblar. Onlar Şərq və Qərb memarlığını sintez edərək layihələndiriblər. Polyak mütəxəssislərin inşa etdikləri memarlıq inciləri indi də Bakının simasını bəzəyir. Həmin dövrdə üç polyak– Gəncə, Qusar və Zaqatalada da polyak memarlıq üslublarında binalar, məscid və kilsələr tikilib, eləcə də şəhər planları hazırlanıb.

Azərbaycan Turizm Bürosu bütün bunları nəzərə alaraq “Azərbaycanda polyak irsi” yol xəritəsini və Polşa turistləri üçün Bakıda gəzinti turu hazırlayıb. Bu xəritə əsasında turistlər polyak memarların ucaltdığı abidələrlə tanış ola biləcəklər.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid Polşa memarlarının Azərbaycanda ucaltdığı abidələrə həsr olunmuş layihənin təqdimatında bildirmişdir ki, bu irslə bağlı broşür hazırlanıb: “Bu broşürdə Polşa memarlarının Azərbaycanda yaratdığı bütün memarlıq abidələri



İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko Bakının baş memarı vəzifəsində işləyiblər. Digər polyak memar Yevgeni Skibinskinin yaratdığı memarlıq inciləri də şəhərə yeni nəfəs gətirmişdi. Belə ki, Bakı Şəhər İcra Hakimiyyətinin binası, Hacı Zeynalabdin Tağıyevin sarayı (indiki Tarix Muzeyi), Qızlar məktəbi (indiki Əlyazmalar İnstitutu), Səadət Sarayı və digər möhtəşəm tikililər polyak memarların əl işləridir.

O zaman polyaklar, Bakıda sıx halda yaşasalar da, polyak memarlıq irsinə Azərbaycanın digər bölgələrində də rast gəlmək olar. Belə ki, Şamaxı, göstərilib. Ümid edirəm ki, sərhədlər açıldıqdan sonra yeni-yeni istiqamətlər üzrə məlumatlar hazırlanacaq”.

Yol xəritəsi turistlərə gəzinti turunu təşkil etməyə kömək edəcək. Turistlər dünyada müsəlman qızlar üçün açılmış ilk məktəb, Bakı milyonçularının sevgi hekayələri, polyak memarlarının taleləri, “Un kralının” başına gəlmiş qalmaqal haqqında məlumatlar əldə edəcəklər. Bundan əlavə, marşrut boyu turistlərin qarşısına “özünlə apar” (take away) kafelər çıxacaq, orada çay və ya qəhvə sifariş edə biləcəklər.

Polyak turistlərin Azərbaycana səfərlərini intensivləşdirmək üçün belə kitabçaların və yol xəritəsinin əhəmiyyəti böyükdür.

“Vaxtilə polyak mütəxəssisləri Azərbaycanda nəinki memarlıq, həmçinin neftçıxarma sahəsində işləyiblər” – deyə Azərbaycan Turizm Assosiasiyası (AzTA) sədrinin müşaviri Müzəffər Ağakərimov bildirir: “Polşalı mühəndis Pavel Pototskinin məzarı Bakıdadır. Azərbaycanda bır sıra əhəmiyyətli tikililərin inşasında polyak memarların izləri var. Elə təkcə İstiqlaliyyət küçəsində bir neçə binanın memarı polyaklar olub. Onlar neft bumu zamanı Bakıda çox binalar inşa ediblər”.

Ekspert hesab edir ki, belə bir marşrutun olması iki dövlət arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına da təsir göstərəcək: “Polşa da Avropanın aparıcı dövlətlərindən biridir. Bu, həmçinin qonşu dövlətlərin də diqqətini çəkə bilər. Eləcə də Gəncədə, Şəmkirdə alman məskənlərinin olması ilə bağlı xəritələrin hazırlanması müsbət addımdır. Fikrimcə, təbliğat təkcə Bakıda aparılmamalı, ikitərəfli olmalıdır. Bəzən bu təbliğatı özümüz üçün edirik, qarşı tərəfə çatdıra bilmirik. Təbliğatı, həmçinin Polşada fəaliyyət göstərən Azərbaycan səfirliyi və diasporu da həyata keçirməlidir. O cümlədən, mədəni əlaqələr, incəsənət günləri vasitəsilə Polşa ictimaiyyətinə də çatdırılmalıdır. Oradakı yeni nəsil də bilsin ki, vaxtilə ölkələrimiz arasında sıx əlaqələr olub və bu gün də var”.

Ekspertin fikrincə, bu tip layihələr ölkəmizə marağı daha da artıracaq: “Azərbaycanın necə tolerant dövlət olduğunu, mədəniyyətinin hansı səviyyədə inkişaf etdiyini onlara çatdırsaq, bir çoxu Azərbaycana üz tutacaq. Həm də təbliğat işini elə qurmaq lazımdır ki, Azərbaycanın, ümumiyyətlə, təkcə Cənubi Qafqazda deyil, bütün Qafqazda oynadığı rolu təqdim edə bilək. Azərbaycanın mədəniyyəti, tarixi, adət-ənənələri, mətbəxi, musiqisi haqqında dolğun məlumatlar Polşa ictimaiyyətində maraq yarada bilər. Düzgün istiqamətdə təbliğat aparılmalıdır ki, onlar ölkəmizə səfər etmək marağında olsunlar. Bu da turizmin inkişafına təkan verə bilər”.

Azərbaycan Turizm Agentlikləri Assosiasiyası (ATAA) Ekspertlər Şurasının sədri Göydəniz Qəhrəmanov hesab edir ki, belə turizm marşrutlarının və broşürların gəlmə turizminə böyük faydası var: “Avropalılar daha çox bu tip istirahəti xoşlayırlar. Muzeyləri gəzmək, abidələrlə tanış olmaq, hansısa yeni marşrutların iştirakçısı olmaq onlar üçün maraqlıdır. Ərəb turistləri isə daha çox təbiəti, yaşıllığı və s. xoşlayırlar. Bu baxımdan, Avropa turistləri bu seqmentdə bizim üçün çox vacibdir. O cümlədən, Bakı-Gəncə-Şuşa-Batumi istiqamətində hazırlanan “Əli və Nino” marşrutu da gəlmə turizmində böyük rol oynayacaq. Ümid edirik ki, yaxın gələcəkdə avtobusla, qatarla bu marşrutlar üzrə turistlərin hərəkəti mümkün olacaq.”

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 6 aprel.- S.10.